# Azərbaycan-İtaliya əlaqələri strateji tərəfdaşlığa və dostluğa söykənir



*Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin əsas istiqamətlərindən biri də ən yaxın tərəfdaşlar və dünya ölkələri ilə uğurlu əməkdaşlıq əlaqələrinin qurulmasıdır. Azərbaycan dünyada etibarlı tərəfdaş, güclü və nüfuzlu dövlət kimi tanınır. Ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.*



Bu baxımdan Azərbaycanın strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır. Hazırda ayrı-ayrı dövlətlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirir, respublikamızla müxtəlif sahələri əhatə edən əlaqələrin inkişafına böyük önəm verir. Bunlardan biri də İtaliya Respublikasıdır. İtaliya ilə qarşılıqlı faydalı münasibətlər də ölkəmizin xarici siyasət kursunda xüsusi yer tutur. Azərbaycan Prezidenti İlham Əliyev İtaliya lideri Sercio Mattarellanın dəvəti ilə sentyabrın 4-də Romaya işgüzar səfərə gəlib. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliyanın rəsmi şəxsləri qarşılayıblar.

Ölkələrarası münasibətlərdə qarşılıqlı səfərlər xüsusi əhəmiyyətə malikdir. Bu mənada Azərbaycan ilə İtaliya arasında yüksək səviyyəli qarşılıqlı səfərlər münasibətlərimizin dinamikasını nümayiş etdirən növbəti amildir. Bu baxımdan 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İtaliyaya ilk rəsmi səfəri dövlətlər arasında bütün sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün əhəmiyyətli addım olub. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İtaliya Respublikasının Prezidenti Oskar Luici Skalfaro ilə görüşü zamanı ölkəmizin İtaliya ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verməsi, habelə, Azərbaycanın İtaliyaya Avropanın böyük demokratik ənənələrə, inkişaf etmiş iqtisadiyyata malik dövlət, əməkdaşlıq üçün çox yaxşı tərəfdaş kimi baxmasını yüksək qiymətləndirib. Səfər zamanı Heydər Əliyev İtaliya Prezidenti, Baş nazir, Senatın və Deputatlar Palatasının sədrləri ilə görüşüb. İki dövlət arasında siyasi, iqtisadi, mədəni və texniki əməkdaşlıq üzrə yeddi saziş imzalanıb. Beləliklə, qarşılıqlı münasibətlər və əlaqələr artan xətt boyu inkişaf etməyə başlayıb, bir sıra səfərlər həyata keçirilib. Azərbaycan Prezidenti Heydər Əliyevin İtaliya Respublikasına rəsmi səfəri bu ölkə ilə bütün sahələrdə əlaqələrin daha da gücləndirilməsi üçün böyük perspektivlər açıb.

**(davamı 2-ci səhifədə)**

Respublika .- 2024.- 5 sentyabr (№ 192).- S.1;2.

# Azərbaycan-İtaliya əlaqələri strateji tərəfdaşlığa və dostluğa söykənir

(əvvəli 1-ci səhifədə)

İtaliya Prezidenti Sercio Mattarellanın 2018-ci ilin iyulunda Azərbaycana ilk dövlət səfəri də əlaqələrimizin inkişafında xüsusi yer tutur. Bu səfərdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya ilk dövlət səfəri reallaşdı. Bu dövlət səfəri Azərbaycan və İtaliya arasında əlaqələrin yeni keyfiyyət müstəvisinə qədəm qoymasını təmin etdi. Belə ki, hazırda Azərbaycan və İtaliya arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir. İtaliya Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın əsas siyasi, iqtisadi və ticarət tərəfdaşıdır.

Dövlətimizin başçısının 2022-ci ildə İtaliyaya növbəti səfəri iki ölkə arasında əlaqələrin dinamik şəkildə inkişaf etdiyini göstərir. Həmin səfər zamanı İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasiminin keçirilməsi, həmçinin dövlətimizin başçısının Çernobbio şəhərində beynəlxalq forumda iştirakı və çıxışı, həmçinin bu ilin iyununda İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsinin ölkəmizə təhvil verilməsi iki ölkə arasında əməkdaşlıq sahələrinin genişlənməsinin bariz nümunəsidir.

İtaliya Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrində böyük rola malikdir. Bu baxımdan Azərbaycan-İtaliya münasibətlərinin lokomotivinin bu sahə olduğunu demək mümkündür. İtaliya hazırda Azərbaycanla bir çox sahələrdə əməkdaşlıq edir. Avropada ən yaxın ticarət tərəfdaşımız olmaqla yanaşı, İtaliya TANAP-TAP layihələrində aparıcı tranzit ölkələrdən biridir. Enerji sahəsində əməkdaşlığımız da yüksək səviyyədədir. İtaliya Azərbaycandan xam neft və neft məhsullarının ixracında ən iri ticarət tərəfdaşına çevrilib. Cənub Qaz Dəhlizi və onun tərkib hissəsi olan Trans-Adriatik qaz boru kəməri (TAP) ikitərəfli enerji əməkdaşlığını və İtaliyanın enerji təhlükəsizliyini möhkəmləndirən vacib amildir. Ötən il TAP kəməri vasitəsilə İtaliyaya təqribən 10 milyard kubmetr qaz ixrac olunub ki, bu da Azərbaycanın bu ölkənin enerji təhlükəsizliyinə töhfəsinin təzahürüdür. İki ölkə arasında ticarət dövriyyəsinin əsasını Azərbaycanın ixracatı təşkil edir. 2023-cü ildə Azərbaycanın İtaliya ilə ticarət dövriyyəsinin həcmi 15,7 milyard ABŞ dolları, o cümlədən idxalın həcmi 0,5 mil-

əlaqələrinin strateji tərəfdaşlıq müstəvisinə yüksəlməsində Prezident İlham Əliyevin müstəsna xidmətləri var.

İtaliya "Böyük Yeddiliyin" üzvüdür, Avropada elm və texnologiya sahəsində yüksək inkişaf etmiş ölkədir. İtaliya ölkəmizə çox böyük dəstək göstərir. Azərbaycan da, öz növbəsində, bir çox sahələrdə vacib addımlar atmağı bacarıb. Bu, təbii ki, Prezident İlham Əliyev diplomatiyasının uğurudur. Qeyd etmək lazımdır ki, tərəfdaşlığın və ikitərəfli münasibətlərin inkişafında hər iki ölkənin dövlət başçılarının səmimi münasibətləri mühüm rol oynayır. İtaliya Prezidenti Sercio Mattarella Azərbaycana çox xoş münasibət göstərir Ölkələrimiz arasındakı münasibətlər qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, bir-birinin maraqlarına hörmət prinsiplərinə əsaslanır. İki ölkə arasında mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq yüksələn xətlə inkişaf edir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən geniş bərpa və yenidənqurma işlərinə Türkiyədən sonra ikinci ən çox İtaliya şirkətləri cəlb olunub. Şuşa da daxil olmaqla azad edilmiş ərazilərdə dini və mədəni abidələrin bərpasının İtaliya şirkətlərinə həvalə olunması iki ölkə arasında çox yüksək etimadın göstəricisidir.

Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılan və İtaliya rəhbərliyi tərəfindən də dəstəklənən İtaliya-Azərbaycan Universiteti iki ölkə arasında dostluq əlaqələrini gücləndirməklə yanaşı, təhsil sahəsində də genişmiqyaslı əməkdaşlığa təkan verib. Eyni zamanda, Prezident İlham Əliyevin iştirakı ilə İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması istiqamətində ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirilib. Dövlətimizin başçısı iki ölkə arasındakı təhsil sahəsində əməkdaşlığı yüksək qiymətləndirib.

İki ölkə arasında mədəniyyət sahəsində münasibətlər də uğurla inkişaf edir. 2012-ci ildə Romanın görkəmli "Villa Borghese" parkında dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı olub. Heydər Əliyev Fondunun təşəbbüsü ilə bərpa edilən Müqəddəs Marçellinio və Pietro katakombalarını da xüsusi qeyd etmək lazımdır. Bu baxımdan Vatikanda Heydər Əliyev Fondunun və şəxsən Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bəşəriyyət üçün dəyərli əsərlərin qorunması, gələcək nəsillərə saxlanılması istiqamətindəki səyləri çox yüksək qiymətləndirilir. 2020-ci ildə İtaliyada "Azərbaycan Mədəniyyət İli" elan edilməsi də ölkələrimiz arasında mədəni əlaqələrin yüksək səviyyəsinin daha bir göstəricisidir. Bu əlaqələrin möhkəmləndirilməsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın böyük xidmətləri var. Azərbaycan-İtaliya mədəni əlaqələri xalqlarımızın, dövlətlərimizin bir-birinə yaxınlaşmasında da əhəmiyyətli rol oynayır. Bütün bunlar belə deməyə əsas verir ki, Azərbaycan-İtaliya əlaqələri tarixi köklərə, qarşılıqlı etimada əsaslanan münasibətlərə, ortaq maraqlara, strateji tərəfdaşlığa və dostluğa söykənir. Prezident İlham Əliyev Azərbaycan-İtaliya əlaqələrinin mükəmməl xarakter daşıdığını və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini vurğulayır.





**Mustafa KAMAL,**
**"Respublika".**